

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# Şərq qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 59 (23.221)

2 aprel 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Federasiyası Çeçenistan Respublikası başçısının müşaviri, Rusiya Dövlət Dumasının deputatı Adam Delimxanovu qəbul edib.

Çeçen xalqının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi heç vaxt unutmayacağını vurğulayan Adam Delimxanov ən çətin vaxtlarda Heydər Əliyevin onlara göstərdiyi qayğı və dəstəyi böyük ehtiramla xatırlayıb. O, xalqlarımız arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu deyib.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan və çeçen xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin dərin tarixi kökləri var və tarixboyu bu əlaqələr daim möhkəmlənib.

Prezident İlham Əliyev Ramzan Kadırovun bu yaxınlarda ölkəmizə səfərini məmnunluqla xatırlayaraq Ramzan Kadırovun çeçen xalqının lideri Hacı Əhməd Kadırovun siyasətini uğurla davam etdirdiyini, Çeçenistanda sabitliyin və əmin-amanlığın bərqərar olduğunu, genişmiqyaslı quruculuq işlərinin həyata keçirildiyini qeyd edib.

Söhbət zamanı Azərbaycan ilə Çeçenistan Respublikası arasında əlaqələrin Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin daha da inkişafı baxımından əhəmiyyəti vurğulanıb.

## 31 mart soyqırımı qurbanlarının əziz xatirəsinə həsr olunmuş ağacəkmə keçirilib





1918-1920-ci illərdə ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımı bəşəriyyət tarixində ən qanlı cinayətdir. Həmin dövrdə Naxçıvanda da ermənilər tərəfindən qırğınlar törədilmiş, yaşayış məntəqələri dağıdılmışdır. Xüsusi amansızlıqla aparılan soyqırımlara baxmayaraq naxçıvanlılar düşmən qarşısında mərdliklə dayanmış, mübarizə aparmışlar. Erməni vəhşiliklərinin əsl mahiyyəti ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra açılmış, xalqımıza qarşı törədilmiş soyqırımlara dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Ulu öndərin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanına əsasən hər il martın 31-i ölkəmizdə azərbaycanlıların soyqırımı günü kimi qeyd olunur.

Soyqırımı qurbanlarının xatirəsi bu gün də əziz tutulur, yad edilir.

Martın 30-da muxtar respublikada soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş ağacəkmə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri Uzunoba Su Anbarının kənarında 2 hektar badam və 1 hektar üzüm bağı salmış, 4 minə yaxın badam və üzüm tingi əkmişlər. Ərazidəki 2 hektar meyvə bağında isə bərpa əkini aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş ağacəkmədə iştirak etmişdir. Məlumat verilmişdir ki, bu ilin yazında muxtar respublika ərazisində 353 hektar sahədə yaşıllaşdırma tədbirləri görüləcək, 108 min müxtəlif meyvə və həmişəyaşıl ting, 710 kiloqram toxum əkiləcəkdir.

Ali Məclisin Sədri yaşıllaşdırma tədbirlərinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

Həmin gün muxtar respublikada 31 mart soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş ağacəkmədə 21 min 843 sakin iştirak etmiş, 22 hektar meyvə bağı və yaşıllıq zolağı salınmış, 15 min ting əkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Nazirlər Kabineti tərəfindən bir sıra qərarlar qəbul olunub

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən 2019-cu ilin mart ayının ikinci 15 günü ərzində bir sıra qərarlar qəbul edilmişdir.

Belə ki, Nazirlər Kabinetinin 2019-cu il 19 mart tarixli 29 nömrəli Qərarı ilə "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatların işçilərinin aylıq vəzifə maaşları sxemlərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 5 aprel tarixli 56 nömrəli Qərarında dəyişikliklər edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 2019-cu il 19 mart tarixli 29 nömrəli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 12 sentyabr tarixli 94 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük ekspertizasının aparılması Qaydaları"nda bir sıra dəyişikliklər də edilmişdir. Dəyişikliyə əsasən ekspert qarşısında qoyulan suallar onun xüsusi biliyindən kənara çıxdıqda, yaxud təqdim olunan materiallar və sənədlər rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda, ekspert rəy verməkdən imtina edir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Kompleks quruculuq işləri aparılır

*Muxtar respublikanın ən böyük bölgəsi olan Şərur rayonunda sosial-iqtisadi və mədəni obyektlərin, istehsal müəssisələrinin, təhsil, səhiyyə ocaqlarının tikintisi, yolların və digər infrastrukturların yenilənməsi diqqət mərkəzində saxlanılır.*

Təkcə ötən il rayonun Ərəbyengicə, İbadulla və Kosacan kəndlərində tam orta məktəb binaları, kənd və xidmət mərkəzləri, səhiyyə müəssisələri tikilib, Şərur şəhərini və ətraf kəndləri əhatə edən içməli su şəbəkəsinin və kanalizasiya sisteminin birinci və ikinci hissələri istismara verilib. "Naxçıvan Avtomobil Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinin texniki servis mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi üçün yeni bina inşa olunub. Ümumiyyətlə, il ərzində rayonda 50-dək müxtəlif təyinatlı obyekt tikilib, 20-dən çox obyektin tikintisi, yaxud yenidən qurulması davam etdirilib. Tikinti-quruculuq işlərində istifadə olunan investisiyanın ümumi həcmi 74 milyon 561,2 min manat təşkil edib.

Bu ilin əvvəllərində isə Şərur şəhərində uşaq xəstəxanası, Kərimbəyli kəndində 270 şagird yerlik tam orta məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası istifadəyə verilib, avtomobil yolu yenidən qurulub.

Cari ildə rayonda tikinti-quruculuq sahəsində yenə də geniş və iri layihələr icra olunur. Daha 4 kənddə sosial obyektlər tikilir, Şərur şəhərində mədəniyyət sarayı üçün bina inşa olunur. Naxçıvan-Sədərək magistralından Şərur şəhərinə qədər olan, eləcə də şəhərdəki Heydər Əliyev prospektini və 6 küçəni əhatə edən 11 kilometrlik avtomobil yolu yenidən qurulur, yolun yatağı genişləndirilir, qalın asfalt örtük salınmasına hazırlıq işləri görülür. Rayon mərkəzində müasir yaşayış kompleksinin də tikintisinə başlanılıb. Kompleks hər biri altımərtəbəli və 40 mənzilli üç yaşayış binasından ibarət olacaqdır. Həmçinin rayonda sutəmizləyici qurğular yaradılır, Zeyvə və Düdəngə kəndlərində də içməli su sistemləri qurulur, kəndlərdə fərdi yaşayış evlərinin tikintisi sürətlə aparılır.





Beləcə, Şərur özünün tarixi-mədəni ənənələrini qoruyub-saxlamaqla hərtərəfli sosial-iqtisadi inkişaf mərhələsini yaşamaqdadır. Gündən-günə müasirləşən, aparılan quruculuq işləri nəticəsində yeni görkəm alan, gözəlləşən Şərur daha uca zirvələr yolundadır.

**Elman MƏMMƏDOV**

*Son dövrlər dünyada bərpa olunan enerji mənbələrinə keçid prioritet məsələyə çevrilib. Hazırda dünyanın inkişaf etmiş ölkələrində ekoloji cəhətdən təmiz, yəni bərpa olunan enerji mənbələrindən geniş istifadə edilir. Bu sahədə ABŞ, Kanada, Almaniya, Finlandiya, Norveç, Danimarka, İspaniya, Yaponiya və Çin daha qabaqcıl mövqe tuturlar. Ölkəmizin təbii coğrafi şəraiti və iqlim qurşaqları da bərpa olunan enerji mənbələrindən istifadənin mümkünlüyünü hər zaman aktual məsələ kimi önə çıxarıb. Bu sahədə mühüm tədbirlərin həyata keçirilməsinə 2004-cü ildən başlanılıb. Belə ki, həmin ildə qəbul olunmuş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" bu istiqamətdə mühüm strategiyanın həyata keçirilməsini şərtləndirib. Proqramda qeyd edilir ki, Naxçıvan Muxtar Respublikasının enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, ilk növbədə, muxtar respublikada orta, kiçik, mikro su elektrik stansiyalarının tikilməsi daha məqsədəuyğundur.*

# Muxtar respublikanın enerji təhlükəsizliyi yeni mərhələyə qədəm qoyub

Bəhs olunan dövrdə bu sahədə ciddi addımlar atılmış, müxtəlif həcmli enerji istehsal edən obyektlər istifadəyə verilmişdir. Hazırda Naxçıvan Muxtar Respublikası iqtisadiyyatın inkişaf etmiş sahələrindən biri də energetikadır. Keçən əsrin sonlarında muxtar respublikanın blokadaya salınması bu vacib sektorun inkişafına böyük əngəllər yaratsa da, ötən dövr ərzində muxtar respublikanın enerji təhlükəsizliyi ilə bağlı atılan mühüm addımlar hazırda bu sahənin hərtərəfli inkişafına zəmin yaratmış, nəticədə, muxtar respublikamız enerji idxalçısından enerji ixracatçısına çevrilmişdir. Diyarımızın energetikasında mövcud təbii potensialdan lazımınca istifadə son bir neçə ildə bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalına imkan vermiş, qısa müddətdə bu sahədə mühüm nəticələr əldə olunmuşdur. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qazla işləmə rejiminə keçirilmiş, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir. Mövcud imkanlardan düzgün istifadənin nəticəsidir ki, həmin ildə, eyni zamanda Şahbuz rayonunda Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə, 2010-cu ildə Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv, 2014-cü ildə Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları, 2015-ci ildə Babək rayonunda 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və 2017-ci ildə stansiyanın gücünün daha 2 meqavat artırılması Naxçıvanın etibarlı enerji təminatına səbəb olmuşdur.



Məlumat üçün bildirək ki, hidroenergetika mənbələri üzrə həyata keçirilən tədbirlər bununla yekunlaşmır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il yanvar ayının 11-də muxtar respublikamıza səfəri çərçivəsində Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edərkən həmin tədbirləri yüksək qiymətləndirərək demişdir: ***"Ordubad rayonunda elektrik stansiyasının təməli qoyuldu. Bu, çox böyük layihədir, böyük stansiya olacaq, 36 meqavat gücündə su elektrik stansiyası tikiləcək. Bu, Naxçıvan Muxtar Respublikasının iqtisadi və enerji potensialını böyük dərəcədə gücləndirəcək".***



Energetika sektorunun davamlı inkişafının nəticəsidir ki, hazırda muxtar respublikamızda elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpa olunan enerji mənbələri hesabına ödənilir. Ötən ilin sonuna muxtar respublikadakı 8 elektrik stansiyasının ümumi gücü 239,4 meqavata çatdırılıb.

Son illərdə muxtar respublikanın enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində atılan ən böyük addımlardan biri də müasir Günəş Elektrik stansiyalarının yaradılmasıdır. Bu sahədə görülən işlərin davamı kimi, 2019-cu il fevralın 22-də Kəngərli rayonunun Qabıllı kəndində yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri stansiyanın açılış mərasimində çıxış edərək bildirib ki, muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirilən tədbirlər Azərbaycanda elektroenergetika sahəsində qəbul olunan dövlət proqramlarının icrası və yeni elektrik stansiyalarının tikilməsi sahəsində görülən işlərin tərkib hissəsidir. Artıq muxtar respublikada enerji təhlükəsizliyi təmin edilib. Ucuz enerji istehsal edən sahələrə üstünlük verməklə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin gəlirlərini artırmaq və bu sahəni daha da müasirləşdirmək qarşıda duran əsas vəzifədir.

Ali Məclisin Sədri qeyd edib ki, muxtar respublikada elektrik stansiyaları qurularkən yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Çünki inkişaf edən dünyada bu texnologiyaların tətbiqi və həmin sahə üzrə mütəxəssislərin hazırlanması mühüm şərtdir. Muxtar respublikada da bu amil əsas götürülür. Ona görə də yeni texnologiyalar tətbiq olunmaqla yanaşı, həm də onları idarə edəcək mütəxəssislər hazırlanmalıdır.

Qeyd edək ki, Kəngərli Günəş Elektrik Stansiyasının tikintisi Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti ilə İsveçrənin "Pure Energy Development" SARL Şirkəti arasında 2018-ci ildə imzalanmış müqavilə əsasında həyata keçirilmişdir. İl ərzində bu stansiyada 3 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcək. Tikinti-quraşdırma işləri çərçivəsində burada 7452 "şüşə-şüşətipli" günəş panelləri, hər birinin gücü 50 kilovat olan 41 invertor, içərisində kommutasiya aparatları və digər elektrik avadanlıqları qoyulmuş 2 ədəd 35/0,4 kilovoltluq transformator yarımstansiyası quraşdırılmış və idarəetmə binası tikilmişdir. Tikinti işləri qısa müddətdə və keyfiyyətlə aparılmışdır. Eyni zamanda stansiyada yeraltı aşağı və yüksəkgərginlikli xətlər, eləcə də rabitə, müşahidə və idarəetmə sistemi üçün optik kabel xətləri çəkilmişdir. İdarəetmə binası 35 kilovoltluq kommutasiya avadanlıqları ilə təmin edilmişdir. 110/35/10 kilovoltluq "Qıvraq" yarımstansiyasına qoşulmaq üçün isə 2 kilometr uzunluğunda 35 kilovoltluq elektrik xətti çəkilmişdir. Bundan əlavə, stansiyanın ərazisi çəpərlənmiş, obyekt siqnalizasiya və videomüşahidə qurğuları ilə təmin olunmuşdur. Quraşdırılan yeni meteoroloji stansiya isə ərazidə hava şəraitinə, yağıntının və rütubətin miqdarına nəzarət etməyə imkan verir.

Vurğulayaq ki, yeni Günəş Elektrik Stansiyasının tikintisində müasir texnologiyanın imkanlarından geniş istifadə olunmuşdur. Məsələn, burada dünyanın ən müasir şüşə panelləri quraşdırılıb. Nəzərə alaq ki, şüşətipli bu panellərin elektrik verilişi alüminium panellərlə müqayisədə daha yüksəkdir. Eyni zamanda bu tip panellər imkan verir ki, stansiya qurularkən daha az torpaq sahəsindən istifadə olunsun. Xatırladaq ki, 2 meqavat gücündəki Kəngərli Günəş Elektrik Stansiyası 4,7 hektar ərazidə qurulub. Məhz bu stansiyanın qurulmasından sonra muxtar respublikada Günəş Elektrik stansiyalarının qoyuluş gücü 24 meqavata, illik istehsal gücü isə 36 milyon kilovat-saata çatdırılmışdır.

Bəli, bir zamanlar enerji qıtlığından əziyyət çəkən və ölkənin əsas ərazilərindən ayrı düşmüş Naxçıvan Muxtar Respublikası artıq bu gün mühüm enerji istehsal edən bir bölgəyə çevrilmişdir. Mövcud resurslardan səmərəli istifadə nəticəsində yaradılmış potensial Naxçıvanı mühüm enerji ixracatçısına çevirmişdir. Son 4 ildə muxtar respublikada üçüncü Günəş Elektrik Stansiyasının yaradılması isə Naxçıvanın bu sahədə güclü, eyni zamanda məqsədyönlü siyasi-iqtisadi iradə nümayiş etdirdiyini göstərir.

**Səbuhi HƏSƏNOV**

---

*Müasir cəmiyyətin sosial-iqtisadi inkişaf problemləri arasında daha çox əmək qüvvəsinin işlə təmin edilməsi və çeşidli məhsul və xidmətlər istehsalına nail olunması mühüm yerlərdən birini tutur. Bu, xüsusən regional xüsusiyyətlərinə və nəqliyyat-kommunikasiya imkanlarına görə seçilən müəyyən ərazilər üçün daha vacibdir. Bu mənada, muxtar respublikamızda davamlı özünüməşğulluğu və geniş çeşiddə rəqabətqabiliyyətli məhsul istehsalı imkanlarını özündə ehtiva edən ailə təsərrüfatlarının inkişaf etdirilməsi dövlətin bu sahədən gözlədiyi sosial-iqtisadi nəticələrin reallaşdırılmasına hesablanıb.*

*"Ailə təsərrüfatları ili" – 2019*

# Ailə təsərrüfatlarının inkişafı diqqət mərkəzindədir

Artıq bildiyimiz kimi, bütün bu və digər əhəmiyyətli cəhətlərinə görə 2019-cu il muxtar respublikamızda "Ailə təsərrüfatları ili" elan olunub və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən muxtar respublikada ailə təsərrüfatı ilində ailə təsərrüfatlarının sahələr üzrə ixtisaslaşması və yeni ailə təsərrüfatlarının yaradılması dəstəklənəcək, ailə təsərrüfatlarının fəaliyyətinin stimullaşdırılmasına dövlət maliyyə dəstəyi göstəriləcəkdir. Şübhəsiz, bu, ailə təsərrüfatlarının inkişafına öncəki illərdə də verilən diqqətin, göstərilən dövlət qayğısının davamı kimi sahənin inkişafı ilə əlaqədar olan hər kəsdən fəallıq göstərməyi, üzərinə düşən vəzifəni yerinə yetirməyi tələb edir. Digər bir tərəfdən dünyada qlobal rəqabətin və bazar risklərinin artdığı bir şəraitdə hər bir ölkə üçün iqtisadi müstəqilliyi maksimum olaraq təmin etmək məsələsini də nəzərə alsaq, ailə təsərrüfatlarının əhəmiyyəti haqqında daha geniş elmi və praktik diskussiya aparmaq mümkündür.





Bəs dünyada, eləcə də ölkəmizdə iri layihələrin reallaşdırıldığı, innovativ sənayenin genişləndiyi bir dövrdə ailə təsərrüfatlarının da inkişafı nə üçün bu qədər əhəmiyyətlidir? İlk olaraq ailə təsərrüfatları müasir dünya iqtisadiyyatında, xüsusən aqrar sahədə yaranmış daxili tələbatın ödənilməsi üçün əsas fəaliyyət sahələrindən biri hesab olunur. Digər bir tərəfdən ailə təsərrüfatlarının inkişafı sosioloji bir çəkiyə malik olub, istehsal-təsərrüfatçılıq ənənələrinin yaşadılması baxımından da faydalıdır. Odur ki, dünyaya texnoloji avadanlıqlar ixrac edən inkişaf etmiş ölkələrdə, xüsusən aqrar sahədə ailə təsərrüfatlarının inkişafı iqtisadçı və menecerlər tərəfindən yüksək qiymətləndirilir. Muxtar respublikamızda bunu Naxçıvanın yerli məhsullarının həm daxili və həm də yaxın region bazarlarında çox yaxşı rəqabətqabiliyyətli olması və nəhayət, düşmən blokadası ucbatından bir sıra istehlak mallarının ölkəmizin digər yerlərindən gətirilmə xərclərinin baha olması ilə əlaqələndirmək olar. Ailə təsərrüfatlarının gələcəkdə sahibkar kimi ailə biznesinə çevrilməsi üzrə dünya təcrübəsini nəzərə alsaq, bu, muxtar respublikada kiçik sahibkarların üstünlük təşkil etdiyi orta təbəqə üzvlərinin sayının artması deməkdir. Bu da hər bir cəmiyyətdə ən mühüm rifah göstəricilərindən biri kimi çox dəyərlidir.

Ailə təsərrüfatları fəaliyyət profili cəhətdən sərbəstdir. Bu da onların iqtisadiyyatın çoxşaxəliliyi üçün əhəmiyyətini göstərir. Bazarın tələblərinə cəld reaksiya verməklə ailə təsərrüfatları sahibləri daha təşəbbüskar bir xarakter ortaya qoya bilir. Bu da, şübhəsiz, gələcəkdə həmin insanların kiçik və orta sahibkar kimi fəaliyyətlərini davam etdirə bilmələri üçün zəmin formalaşdırır. Ümumiyyətlə isə ailə təsərrüfatlarının idarə olunması çox sadə və asandır. Belə ki, bir təsərrüfatda birləşmiş, əsasən, ailə üzvləri və ya yaxın qohumlar olan insanlar bir-birlərinin fərdi xüsusiyyətlərini, işə münasibətlərini və yaxud yaradıcılıq keyfiyyətlərini yaxşı bildikləri üçün bu, idarəetmə prosesində çətinlik yaratmadan problemlərin həlli deməkdir. Ümumilikdə isə ailə təsərrüfatları bazarın tələblərinə həssas olduqları üçün onların qarşılaşdıqları belə problemlər də çox nadir hallarda yaranır. Belə ki, ailə təsərrüfatı üzvləri, eyni zamanda həm də istehsal etdikləri məhsulların bir qisminin istehlakçısı olduqlarından burada onların satış problemi də yaranmır. Ona görə də çox da böyük olmayan bir ərazidə, məsələn, Naxçıvan Muxtar Respublikasında minə yaxın ailə təsərrüfatının mövcud olması tamamilə təbii haldır.

Hazırda muxtar respublikamızda heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq və əkinçilik sahələri üzrə 800-dən çox ailə təsərrüfatı fəaliyyət göstərir. Təkcə 2018-ci ildə muxtar respublikada 319 ixtisaslaşmış ailə təsərrüfatı yaradılıb. Bu sayda ailə təsərrüfatının istehsalı olan məhsulların tanıdılması və satışı üçün festivallar keçirilir. Onu da qeyd edək ki, muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən ticarət obyektlərində xüsusi olaraq ailə təsərrüfatı məhsulları guşələri yaradılması tapşırığı verilib. Görülən bu tədbirlər, şübhəsiz, ailə təsərrüfatlarının iqtisadi əhəmiyyətinin başa düşülməsi, istehsal olunmuş məhsulların geniş rəqabət arenasına çıxarılaraq daha yaxşıların müvəffəqiyyət qazanması üçündür. Eyni zamanda istehlakçıların da ailə təsərrüfatı məhsulları timsalında ekoloji təmiz məhsullara daha çox meyil etməsi, ümumilikdə, sağlam həyat tərzimiz deməkdir.

Bununla bağlı Naxçıvan şəhərində və bir sıra rayonlardakı ticarət obyektlərinə baş çəkib ailə təsərrüfatı məhsullarının satışı vəziyyəti ilə tanış olduq. Bir çox ticarət obyektlərində satış üçün təklif olunan ailə təsərrüfatı məhsullarının kifayət qədər geniş çeşiddə, gözəl qablaşdırmada, münasib qiymətdə və ən əsası, alıcıların daha yaxşı görə bilməsi üçün ön piştaxtalarda sərgiləndiyinin şahidi olduq. Satıcılarla söhbət zamanı bu qənaətə gəldik ki, belə də olmalıdır. Çünki bu vacib məsələdə dövlətimizlə bərabər hər kəsin görülən işə verəcəyi töhfə, ən azı, vətənpərvərlik borcudur. Bir çox istehlakçının zahiri görünüşünə aldanıb satın aldığı bəzi idxal olunan malların əsl keyfiyyətdə yerli məhsullarımızdan qat-qat geri qaldığını yaxşı bilirik. Odur ki, gəlin hər sahədə olduğu kimi, bu vacib işdə də nümunə olmağa çalışaq.

**Əli CABBAROV**

# "Nuhçıxan" İnformasiya Agentliyinin yaradılmasının 1 illiyi qeyd olunub

***Aprelin 1-də "Nuhçıxan" İnformasiya Agentliyinin yaranmasının 1 illiyi münasibətilə tədbir keçirilib.***

Aparıcılar tədbiri açaraq muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına göstərilən qayğıdan danışıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək deyib: Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun adından ötən 1 ildəki uğurlu fəaliyyətinə görə "Nuhçıxan" İnformasiya Agentliyinin kollektivinə təşəkkür edilir. Qeyd olunub ki, ümummilli liderimiz Heydər Əliyevin söz, fikir və mətbuat azadlığının təmin olunması sahəsində əsasını qoyduğu dövlət siyasəti bu gün ölkəmizdə, eləcə də onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün geniş imkanlar yaradılır. Mətbuat orqanlarına, teleradiolara olan hərtərəfli qayğının nəticəsidir ki, bu sahədə böyük keyfiyyət dəyişiklikləri yaranmış, informasiya-məlumatlandırma işi günün tələbləri səviyyəsində qurulmuş, muxtar respublikanın kütləvi informasiya vasitələri yeni inkişaf mərhələsinə çıxmışdır. Artıq muxtar respublika mətbuatı ən müasir maddi-texniki bazaya malikdir. Təkcə ötən il dövlət teleradiosuna, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manata yaxın olan müxtəlif avadanlıqlar alınmışdır.

Ülvi Hüseynli deyib ki, "Nuhçıxan" İnformasiya Agentliyinin yaradılması Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyarın müasir sosial-iqtisadi inkişafı, tarixi və turizm potensialı haqqında məlumatların geniş oxucu, tamaşaçı və izləyici auditoriyasına çatdırılmasına imkan verib. "Nuhçıxan" İnformasiya Agentliyinin əsas uğurlarından biri də Naxçıvan Muxtar Respublikası barədə informasiyaların dünya miqyasında yayılmasıdır. Artıq ölkə və dünya mediası Naxçıvanla bağlı istənilən informasiyada agentliyə istinad edir. Agentliyin ölkəmizdəki, eləcə də Türkiyədəki bir çox informasiya portalları ilə səmərəli əməkdaşlığı vardır. Bu gün "Nuhçıxan" İnformasiya Agentliyinin kollektivi Naxçıvan həqiqətlərini olduğu kimi ictimaiyyətə çatdırır.



Fəxrlə demək olar ki, agentlik qərəzsiz, dəqiq, operativ və obyektiv informasiyanın çatdırılması sahəsində artıq yeni bir yanaşmanın – Naxçıvan nümunəsinin əsasını qoyub.

Bildirilib ki, 1 aprel həm də muxtar respublikada Teleradio Verilişləri Komitəsinin yarandığı gündür. Ülvi Hüseynli bu münasibətlə dövlət teleradiosunun kollektivini təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

"Nuhçıxan" İnformasiya Agentliyinin baş redaktoru Səməd Canbaxşiyev qeyd edib ki, "Nuhçıxan" İnformasiya Agentliyinin ötən bir il ərzində geniş oxucu kütləsinə təqdim etdiyi dəqiq və operativ xəbərlər, məlumatlar müasir jurnalistikanın tələblərinə uyğun şəkildə işlənərək çatdırılıb. İnternet saytının imkanlarından istifadə edilərək materiallar yazı, foto və video formatında hazırlandığı üçün oxucu və izləyicilərin diqqətini çəkməklə yanaşı, onlar üçün rahat və əlçatan olub. Əməkdaşlar bir il ərzində "Nuhçıxan" İnformasiya Agentliyinin saytında 13 mindən çox xəbər yerləşdiriblər. "Nuhçıxan" İnformasiya Agentliyi həm də yaradıcılıq üslubu ilə fərqlənir. Yoxlanılmış dəqiq faktlar, tutarlı dəlillər, rəsmi mənbələrdən əldə edilən məlumatların təqdimatı sayta oxucu və izləyici auditoriyasının inamını qazandırıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncam və fərmanlarını, rəsmi qurumların mətbuat xidmətlərinin göndərdiyi məlumatları, peşəkar jurnalistlərin yazdığı ictimai-siyasi əhəmiyyətli yazıları hər gün on minlərlə insan maraqla məhz "Nuhçıxan"dan izləyir.

Azərbaycan Respublikasının Əməkdar jurnalisti Qahirə Hüseynova tədbirdə çıxış edərək bildirib ki, "Nuhçıxan" Naxçıvan Muxtar Respublikasının mətbuat tarixində informasiya blokadasının yarılmasında yeni bir tarixi mərhələnin başlanğıcını qoyub. Muxtar respublika ziyalıları, peşəkar və gənc jurnalistlər üçün, əsl mənada, yaradıcılıq tribunasına çevrilən "Nuhçıxan" İnformasiya Agentliyinin saytında onların elmi, publisistik yazılarına geniş yer verilir. Qahirə Hüseynova agentliyə bundan sonrakı fəaliyyətində uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli deyib ki, müstəqillik illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə Naxçıvan Dövlət Televiziyası və Radiosu böyük inkişaf yolu keçib, teleradio müstəqil kanalda yayımlanmağa başlayıb. Müxtəlif illərdə teleradionun maddi-texniki bazası xeyli gücləndirilib, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, müasir texniki avadanlıqlarla təchiz edilib. Yeni yayım avadanlıqları qısa zamanda analoq yayımın yüksəkkeyfiyyətli rəqəmsal yayımla əvəzlənməsinə şərait yaratdı. Beləliklə, Naxçıvan Dövlət Televiziyası ölkəmizdə ilk dəfə olaraq yüksəkkeyfiyyətli HD formatda yayıma başladı. İlbəil avadanlıqları yeniləşdirilən dövlət teleradiosunda bu gün dünyanın qabaqcıl ölkələrinin teleradiolarında istifadə olunan ən müasir texniki avadanlıqlar quraşdırılıb. *Naxcivantv.az* saytının və "Nuhçıxan" İnformasiya Agentliyinin fəaliyyətini təşkil etmək məqsədilə televiziyada İnformasiya təminatı və saytlarla iş redaksiyası yaradılıb. Geniş izləyici kütləsi toplayan "Nuhçıxan" İnformasiya Agentliyi Naxçıvanın mühüm informasiya mənbəyi olmaqla yanaşı, həm də müstəqil ölkəmizin əsas informasiya portallarından birinə çevrilib.

Qeyd olunub ki, bu gün dünyanın istənilən yerində televiziyanın izlənilməsi muxtar respublikanın tanıdılmasına, diyarımızda həyata keçirilən böyük quruculuq tədbirlərinin, insanların yaşayış səviyyəsi, qədim diyarın mədəniyyəti, tarixi-mədəni irsi və milli dəyərləri haqqında məlumatların daha geniş izləyici kütləsinə çatdırılmasına imkan verir. Naxçıvan Teleradiosu və "Nuhçıxan" İnformasiya Agentliyi muxtar respublikanın dünyaya açılan pəncərəsi olaraq Naxçıvanın dünyada tanıdılması və təbliği işini bundan sonra da uğurla davam etdirəcəkdir. Sahil Tahirli yaradılan şəraitə, göstərilən yüksək diqqət və qayğıya görə kollektiv adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.




Çıxışlardan sonra Naxçıvan Teleradiosunun və "Nuhçıxan" İnformasiya Agentliyinin fəaliyyətindən bəhs edən videoçarx təqdim olunub.

Sonra işlərində fərqlənən əməkdaşlara, eləcə də agentliklə fəal əməkdaşlıq edən dövlət orqanlarının mətbuat xidmətlərinin rəhbərlərinə və informasiyaların sosial şəbəkələrdə yayılmasında fəallıq göstərən bir qrup gəncə fəxri fərman və hədiyyələr təqdim olunub.

Dövlət Yol Polisi İdarəsinin Təbliğat üzrə baş inspektoru Ayaz İsmayılov, Səhiyyə Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Hüseyn Əsgərov, AMEA Naxçıvan Bölməsinin Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Türkanə Bəylərli, Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətinin rəhbəri Nəriman Nəcəfov, "Şərq qapısı" qəzetinin müxbiri Mətanət Məmmədova, "Şərqin səhəri" qəzetinin məsul katibi, tədqiqatçı-jurnalist Zaleh Novruzov, Televiziya və Radio Şurasının üzvü Sara Əzimova, "Nuhçıxan" İnformasiya Agentliyinin kompüter-qrafikaçısı Sahil Məmmədzadə və agentliyin məlumatlarının sosial şəbəkələrdə yayılmasında aktiv fəaliyyət göstərdiyinə görə Naxçıvan televiziyasının kinooperatoru Elşad Heydərov fəxri fərmanla təltif olunublar. Eyni zamanda "Nuhçıxan" İnformasiya Agentliyinin video və veb məlumatlarının yayılmasında fəal iştirak etdiyinə görə Culfa rayon Milax kənd sakini, fəal gənc Loğman Quliyev, Sədərək rayon sakini, fəal gənc Aygün Həsənbəyli və Culfa rayon Əlincə kənd sakini, fəal gənc Kamran Hümbətov fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Təltif olunanlardan Hüseyn Əsgərov, Ayaz İsmayılov, Mətanət Məmmədova, Zaleh Novruzov, Elşad Heydərov göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

"Şərq qapısı" qəzetinin baş redaktoru Mehriban Sultanova, Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, AZƏRTAC-ın Naxçıvan Bürosunun rəhbəri Rauf Əliyev və digərləri kollektivi təbrik edib, yeni yaradıcılıq uğurları arzulayıblar.

Televiziya və Radio Şurasının üzvü Sara Əzimova və Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşı Günel İbrahimova agentliyə xatirə hədiyyələri təqdim ediblər.

Tədbirin bədii hissəsində televiziyanın "Nuhçıxan" xalq çalğı alətləri ansamblı konsert proqramı ilə çıxış edib.

Sonda xatirə şəkli çəkdirilib.

**"Şərq qapısı"**

# Şəhid məzarları and yerimizdir



*Gözəl bir yaz səhəri doğulduğu torpaqdan yüzlərlə kilometr uzaqda "Öncə Vətəndir", – deyib canından keçən igid oğullarımızdan birinin – şanlı Aprel zəfərinin şəhidi Qabil Orucəliyevin ölümsüzlüyə qovuşduğu günün üçüncü ildönümündə onun məzarı başında dayanmışıq. Qabil lal-dinməz baxışları ilə ziyarətçilərini seyr edir. Şəhidin gənc üzünə, gülən gözlərinə baxdıqca dərin bir kədər bürüsə də məni, tezliklə bu kədər qürurla əvəz olunur və deyirəm ki, şəhidim, canından keçdiyin o yerlərdə bilirsənmi indi nələr var. Getdim, gördüm, Azərbaycan əsgəri keşik çəkir, Vətənin üçrəngli bayrağı dalğalanır o dağlarda. Artıq üç ildir ki, illərlə həsrət qaldıqları torpaqları əkib-becərir, gecələri isə rahat yatır o yerlərin sakinləri.*

Aprel zəfərinə kimi hər gün mərmi səslərindən diksinən Tapqaraqoyunlunun, orada qoyub gəldiyin insanların bu günü sakit, sabahları nurludur. Artıq orada xoş günlər yaşanır. Düşmən gülləsindən uzaq yaşayış yerləri gülüstana çevrilib, üç ildir ki, bayram tonqalı qalanır Talışda, Cocuq Mərcanlıda. Kəndin sakinləri hər gün bu gözəl sabahları onlara bəxş edən şəhidlərimizə Tanrıdan rəhmət diləyirlər.

Hələ bu harasıdır? Sənə bir müjdəm də var! Aprel döyüşlərindən sonra, ötən ilin may ayının sonlarında Əlahiddə Ümumqoşun Ordunun birləşmələri 26 il işğal altında olan Şərur rayonunun Günnüt kəndini və 11 min hektar ərazini azad edərək mühüm strateji üstünlüklər qazandı. Bu qələbə hərbi-strateji əhəmiyyətinə görə qüdrətli ordumuzun Aprel döyüşlərindən sonrakı ən böyük zəfəri idi. Günnütlülərin 26 illik torpaq həsrətinə son qoyuldu. 26 il sonra Günnüt kəndindən murdar ermeninin izi birdəfəlik silindi, kənddə müqəddəs "Quran" səsi eşidildi, ən uca zirvəyə – Qızılqaya yüksəkliyinə Azərbaycan bayrağı sancıldı. Həmin qələbə zəfərini yaşamağımız xalqımızın bir an belə düşünmədən canını Vətəni üçün qurban verməyə hazır olan sənin kimi igid oğullarımızın davamçılarının sayəsində oldu.

Şəhidim, Vətənə əmanət etdiyin ailən göz bəbəyi kimi qorunur, himayə edilir, onlar sarıdan heç nigaran olma, gözün arxada qalmasın. Hər dəfə Nuriyyə ananı görəndə o səndən qürurla danışır: "Oğlum məni şəhid anası kimi yüksək mərtəbəyə layiq gördü. Görün, necə də müqəddəs səslənir bu ad. İndi mən bütün azərbaycanlı oğullarının anasıyam. Fəxr duyuram ki, oğlum torpaq uğrunda şəhid olub. Onun adı ölümsüzlər siyahısına yazılıb", – deyir. Rahat uyu, şəhidim, sənin kimi igid oğulların ailələrinə böyük qayğı ilə yanaşan muxtar respublika rəhbəri ailəni köməksiz qoymur, nə lazımdırsa, edilir. Ailən hər cür şəraitə malik yeni mənzillə də təmin olunub. Hər dəfə sizə qonaq olanda adaşın qapıya gəlir, şirin dili ilə: kimdir? – deyə soruşduqdan sonra qapını açır. O səliqəli, hər cür şəraitə malik mənzilin divarlarında rəsmlərin asılıb, evin hansı küncünə baxsan, igid Qabili görürsən. Nuriyyə xala deyir ki, bu rəsmlərdən birini Azərbaycanın uzaq rayonlarında yaşayan bir rəssam çəkib göndərib. Görürsənmi, sən təkcə naxçıvanlıların qəlbində özünə taxt qurmamısan.

Daha nə deyim sənə, şəhidim. Vətən üçün min canı olsa, verə biləcək şəhidim.Vətən həmişə şəhidləri ilə var olur. Sən heç nəyi düşünmədən sipər etdin öz canını düşmənlərə. Və bu gün başımızın üzərində dalğalanan bu bayraq sənin



kimi oğulların canı bahasına ucalır. Hər bir gəncimiz üçün məzarlarınız and yerinə çevrilib, onlar bu məzarlara müqəddəs ziyarətgah kimi baxır, məzarın önündə torpaqlarımızı azad etməyə and içirlər.

Qəhrəmanın məzarı başından ayrılanda baxışlarında sanki bir nigarançılıq, bir narahatlıq görürəm. Bəlkə də, bu, hələ də düşmən işğalı altında olan Qarabağın gələcək taleyinin nigarançılığıdır. Öz-özümə: "Nigaran olma, elimin igid oğlu", – deyirəm, rahat uyu, igidlər yurdunun mərd əsgəri, uğrunda canını verdiyin o Vətən torpağının üzərində artıq Azərbaycan əsgəri keşik çəkir. Qarabağın azad olunması yolunda Cocuq Mərcanlıdan, Talış yüksəkliyindən başlayıb Qızılqaya zirvəsinə doğru yol alan zəfər yürüşümüz torpaqlarımız azad edilənə kimi davam edəcək. Çünki Aprel döyüşlərində Azərbaycan Ordusu öz qüdrətini bir daha dünyaya nümayiş etdirdi. Hər kəs gördü ki, bu xalqın, bu millətin hər bir övladı istənilən anda düşmənə qalib gəlməyə qadirdir. Gün gələcək, mənfur düşmən öz qanında boğulacaq, sənin və sənin kimi yüzlərlə şəhidimizin qisası alınacaq. Və düşmən bir daha anlayacaq ki, şəhid qanı ilə sulanan bu torpağın bir qarışı belə, güzəştə gedilməyəcək. Sənin kimi qəhrəmanlar yetirən Vətən heç vaxt məğlub ola bilməz.

**Ramiyyə ƏKBƏROVA**

## Növbəti imtahanlar keçirilib



Dövlət İmtahan Mərkəzi tərəfindən martın 31-də ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) qəbul olmaq istəyən əvvəlki illərin məzunları, indiyədək təhsil sənədi ala bilməyən və eksternat qaydasında imtahan verən məzunlar, üzrlü səbəbdən bu ay keçirilən buraxılış imtahanlarının (IX sinif) birinci mərhələsində iştirak edə bilməyən cari ilin məzunları, orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində orta məktəbdə təhsil aldıqları bölmədən fərqli bölmə üzrə iştirak etmək istəyən Azərbaycan və ya rus dili fənni üzrə imtahan verən cari ilin məzunları, orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində buraxılış imtahanı çərçivəsində verilən xarici dil fənnindən fərqli xarici dil fənni üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün imtahanlar keçirilib.

Ölkə üzrə təşkil olunan imtahanlar eyni vaxtda, saat 11[00]-da başlanıb. Həmin gün, ümumilikdə, 7353 nəfər imtahan verib.

Naxçıvan şəhərində 14 nömrəli tam orta məktəbdə keçirilən imtahanda şagirdlərə Azərbaycan dili, riyaziyyat və xarici dil fənləri olmaqla, ümumilikdə, 45 test tapşırığı təqdim olunub.

Qeyd edək ki, imtahanda istifadə olunan açıqtipli tapşırıqlar yoxlanılacaq, nəticələr imtahanın ikinci mərhələsi keçiriləndək *www.dim.gov.az* saytında yerləşdiriləcəkdir.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Fənn olimpiadalarının yarımfinal turu



*Martın 31-də Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə respublika fənn olimpiadalarının yarımfinal turu keçirilib. Respublika fənn olimpiadalarında xüsusi istedada malik IX-XI sinif şagirdləri güclərini sınayıblar.*

Məlumat üçün bildirək ki, olimpiadanın yarımfinal turunda şəhər və rayon mərhələsinin nəticələrinə əsasən 329 şagird iştirak etmək hüququ qazanıb.

Ümumilikdə, 8 fənn üzrə keçirilən yarımfinal mərhələsində şagirdlərə 30 test tapşırığı təqdim edilib. Olimpiadaların təşkilində məqsəd istedadlı uşaqların aşkar olunması, şagirdlərdə fənlərə olan marağın artırılması, onların sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirmələri olub.

Yarımfinal turunda minimum 21 sualı düzgün cavablandıran şagirdlər aprel ayında keçiriləcək respublika fənn olimpiadalarının final turunda iştirak edəcəklər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## Müdriklik xəzinəsinə aparan kitab: “Söz incisi”

*Qədim dövrlərdən günümüzədək nəsildən-nəslə ötürülən müdrik kəlamlar, atalar sözləri və hikmətli ifadələr kodlaşdırılmış və qəlibləşmiş söz xəzinəsidir.*

İndiyədək aforizmlərin və hikmətli sözlərin toplandığı yüzlərlə kitab çap olunub. Həmin kitabların aforizmlərin oxuculara çatdırılmasında müstəsna əhəmiyyəti var. Bu yaxınlarda gənc müəllif Leyla Xəlilovanın tərtib etdiyi və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən nəşr olunan “Söz incisi” kitabında da minilliklərdən süzülüb gələn hikmətli söz sərvəti toplanıb. Kitabın redaktoru AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev, rəyçiləri filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov və filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədovdur. “Ön söz”də də yazıldığı kimi “geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitabdan müxtəlif ixtisas sahibləri istifadə edə bilər: müəllim, tələbə, hakim, hüquqşünas, mühəndis və başqaları”.



İlk səhifəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik kəlamları verilən bu kitabda müqəddəs “Qurani-Kərim”dən ayələr, həzrəti Məhəmməd Peyğəmbər və digər peyğəmbərlərin, din xadimlərinin ibrətamiz kəlamlarına, nəsihətlərinə də yer verilib.

Kitabın özünəməxsusluğu ondadır ki, burada tarixboyu təcrübədə sınaqdan çıxmış və aforizmə çevrilmiş ifadələr bir araya gətirilərkən hər zümrədən və peşədən olan insanların – filosof, hüquqşünas, tarixçi, alim, dövlət xadimi, yazıçı, şair, rəssam, hətta dünyada tanınan müğənni, aktyor, idmançı, biznesmen, habelə bir çox digər elm və sənət adamlarının deyimləri, həm də məşhur kinofilmlərdən sitatlar öz əksini tapıb. Yeni nəşrdə, həmçinin böyük İslam şəxsiyyətlərindən Əbunəsr əl-Farabi, İbn Xaldun, Əbül Fərəc, Şeyx Sədi Şirazi, Nasiri Hüsrəv, Şəms Təbrizi, Mövlana Cəlaləddin Rumidən son dərəcə maraqlı və mənalı kəlamlar verilib. Çin, yunan, alman, ingilis, ispan, yəhudi, ərəb, fransız, amerikan, italyan, rus, türk və başqa çoxsaylı xalqların məşhur elm, ədəbiyyat və mədəniyyət xadimlərinin ibrətamiz fikirləri də toplanıb.

“Söz incisi”nin digər maraqlı tərəfi odur ki, o, Azərbaycanın, eləcə də dünya xalqlarının zəngin mədəni irsi sayılan atalar sözlərindən seçmə nümunələri də özündə əks etdirir.

Böyük Azərbaycan şairləri Nizami Gəncəvi, Məhəmməd Füzuli, Xaqani Şirvani, Hüseyn Cavid, Səməd Vurğun, Xəlil Rza, Bəxtiyar Vahabzadə, Hüseyn Razi, o cümlədən Türk dünyasının qüdrətli söz ustaları Yunus Əmrə, Mehmet Akif Ərsoy, Tovfiq Fikrət, Nəcib Fazil Qısakürək, eləcə də Şərqin görkəmli simaları olan Sədi Şirazi, Əmir Xosrov Dəhləvi kimi söz adamlarından ibrətamiz nümunələrin, mənalı və hikmətli beytlərin gətirilməsi də kitabın sanbalını artıran amillərdən biridir.

*İnanırıq ki, Leyla Xəlilovanın tərtib etdiyi “Söz incisi” kitabı oxucular üçün faydalı olacaqdır.*

**Kübra VƏLİYEVA**
***AMEA Naxçıvan Bölməsinin dissertantı***

## Sosial xidmət göstərilən ahılların evlərinə ziyarətlər təşkil olunub

***Muxtar respublikada davamlı iqtisadi inkişafın təmin olunması nəticəsində ahıl vətəndaşlara göstərilən sosial xidmətlər təkmilləşdirilib, onların cəmiyyətə inteqrasiyası üçün hərtərəfli şərait yaradılıb.***

Ahıllara göstərilən xidmətlərin əsasını onların tibbi-sosial reabilitasiyası təşkil edir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikada əmək qabiliyyətli yaxın qohumu ilə eyni yaşayış məntəqəsində yaşamayan və kənar şəxsin qulluğuna ehtiyacı olan tənha ahıllar müəyyənləşdirilərək sosial xidmətə qəbul olunur, onlara evlərində sosial məişət xidməti göstərilir. Həyata keçirilən bu tədbirlərin davamı olaraq mart ayının 30-da Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı, Gənclər Fondunun üzvlərinin iştirakı ilə sosial xidmət göstərilən tənha ahılların evlərinə ziyarətlər təşkil olunub. Gənclər ahıllara göstərilən sosial xidmətlərlə tanış olub, yaşayış sahələrində təmizlik və abadlıq işlərinin aparılmasında, onlar üçün zəruri ərzaq və məişət mallarının alınmasında köməklik göstəriblər. Eyni zamanda tənha ahıllara sovqatlar da təqdim olunub. Ahıl vətəndaşlar onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.



Qeyd edək ki, bu kimi tədbirlərin keçirilməsində əsas məqsəd gənclərin tənha ahıllara göstərilən sosial xidmətlərlə tanışlığı, sosial xidmət sahələrində könüllülük fəaliyyətinin genişlənməsinin təşviqi, tənha ahıllarda yarana biləcək diskriminasiya (ayrı-seçkilik) hallarının qarşısının alınması, habelə onların sosial inteqrasiyasına nail olunmasından ibarətdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## “Gənclər bağı”nda iməcilik

Təbiətin keşiyində durmağı bacarmaq psixologiyasını böyüyən nəslə aşılamaq ən gözəl təbiət dərsidir. Elə bu prinsipi əsas tutaraq Naxçıvan şəhəri ətrafındakı “Gənclər bağı”nda 50-yə yaxın könüllü gəncin iştirakı ilə iməcilik keçirilib. İməcilik zamanı meşəbərpa işləri aparılıb, ağaclar budanıb, suvarılıb və ətrafları təmizlənib.



Sonda gənclərə çay süfrəsi təşkil olunub. Tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilib.

## İdman obyektlərində dərmanlama işləri aparılır

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Səhiyyə nazirliklərinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən idman obyektlərində yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə hər il dərmanlama işləri həyata keçirilir. Bu, həmin obyektlərdə idmanın müxtəlif növləri ilə məşğul olanların sağlamlığına göstərilən qayğının ifadəsidir. Cari ildə də bu tədbir davam etdirilir.



Dərmanlama tədbirləri ilk olaraq Naxçıvan Muxtar Respublika Stadionu, Özgüçülük Mərkəzi və İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində keçirilib. Növbəti günlərdə digər idman obyektlərində də dərmanlama işləri davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Karateçilərimiz böyük uğurlara imza atıblar

*Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirmələri cari ildə qazandıqları uğurların sayını artırmaqdadırlar. İdmançılarımız ilk olaraq Bakı Şəhər Sərhədçi Olimpiya-İdman Kompleksində keçirilən 10-cu “Bakı Open” beynəlxalq turnirində kumite və kata yarışlarında 15 müxtəlif əyarlı medal qazanıblar. Bununla yanaşı, federasiyanın idmançıları Gürcüstan Respublikasının Tbilisi şəhərində keçirilən 9-cu “Tbilisi Open” beynəlxalq turnirində də uğurla çıxış ediblər. Belə ki, 6-7 yaş qrupunda Rafiq Hüseynli (28 kiloqram) birinci, 8-9 yaşlıların qrupunda Yaqub Qənbərov (35 kiloqram) isə üçüncü yerə layiq görülüblər. Keçirilən hər iki beynəlxalq turnirdə uğur qazanan idmançılarımızın fikirlərini öyrəndik.*



**Vüsal SEYİDOV:** “Bu gün bizim məşq etməyimiz üçün hərtərəfli şərait yaradılıb. Bunun nəticəsi kimi biz idmançılar keçirilən beynəlxalq və ölkədaxili turnirlərdə böyük uğurlar əldə edirik. Bakı şəhərində keçirilən “Bakı Open” beynəlxalq turnirində 14-15 yaş qrupunda mübarizə apardım. Azərbaycan Milli Karate Federasiyasının yaranmasının 25 illik yubileyinə həsr edilən turnirdə qalib gəlməyi qarşıma məqsəd qoymuşdum ki, buna da nail oldum. Bizi qarşıda daha böyük yarışlar gözləyir. Çalışacağam ki, iştirak etdiyim hər bir yarışda muxtar respublikanı layiqincə təmsil edim”.



**Zəhra MƏMMƏDOVA:** “Keçirilən kumite yarışlarında 8-9 yaş qrupu üzrə 35 kiloqram çəki dərəcəsində mübarizə apardım. Final görüşündə qalib gələrək turnirin baş mükafatını qazandım. Bununla yanaşı, kata yarışlarında da iştirak etdim və bürünc medala layiq görüldüm. Qazandığımız uğurlar mütəmadi keçirilən məşqlərin bəhrəsidir. Biz idmançılar üçün bu gün hər bir şərait yaradılıb. Yaradılan şəraitə görə qız idmançılar adından minnətdarlığımızı bildiririk”.

**Ayan MƏMMƏDOVA:** “Uşaqlar, yeniyetmələr, gənclər, böyüklər və veteranlar arasında keçirilən yubiley turnirində 15-ə yaxın ölkəni 1000-dən çox idmançı təmsil edirdi. Belə böyük turnirdə iştirak etmək mənim üçün qürurvericidir. Kumite yarışlarında 10-11 yaş qrupu üzrə +40 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxdım və çempion oldum. Bu, bizim, xüsusilə qız idmançılar üçün yaradılan şəraitin bariz nümunəsidir. Qarşıdakı yarışlarda qız idmançılarımızın daha böyük uğurlar qazanacaqlarına inanıram”.



Qeyd edək ki, 10-cu “Bakı Open” beynəlxalq turnirində fərdi kata və kumite üzrə yarışlar 4 gün davam edib. İdmançılarımızdan 8-9 yaş qrupunda Özləm Hacıyeva (kata yarışları) və Aminə Novruzzadə (35 kiloqram, kumite) ikinci, Nərgiz Həsənli (+35 kiloqram, kumite) və Yaqub Qənbərov (-33 kiloqram, kumite) isə üçüncü yerə layiq görülüblər. Həmçinin 6-7 yaş qrupunda Rafiq Hüseynli (+29 kiloqram, kumite), 10-11 yaş qrupunda Qafar Hüseynov (komanda yarışı), 16-17 yaş qrupunda Aslan İsmayılov (+84 kiloqram), 18-21 yaş qrupunda Mirpaşa Kərimzadə (75 kiloqram), Murad Ələkbərov (-67 kiloqram) və 36-45 yaş qrupunda Qələndər Bünyadov (kata və kumite) üçüncü olublar.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 8, ev 16-da qeydiyyatda olan Qafarova Humay Həsənxan qızının adına olan 18778 nömrəli Texniki pasport və MH-0062343 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 234